# İstifadəçi Şərtləri

https://datarace.ai

*Son yenilənmə: 2 İyul 2026*

## 1. Ümumi müddəalar

Bu İstifadəçi Şərtləri (bundan sonra - "Şərtlər") https://datarace.ai platformasının (bundan sonra - "Platforma") istifadəsini və Platforma ilə istifadəçiləri arasındakı münasibətləri tənzimləyir.

Platforma "Milli Süni İntellekt Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra - "MSİM" və ya "Şirkət") tərəfindən idarə olunur və süni intellekt və maşın öyrənməsi (AI/ML) sahəsində yarışlara ev sahibliyi edən, iştirakçıların data və süni intellekt bacarıqlarını inkişaf etdirmələri üçün infrastruktur təqdim edən onlayn platformadır.

DataRace.AI "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" çərçivəsində fəaliyyət göstərir və ölkədə AI ekosisteminin formalaşdırılmasına töhfə verir.

Platformada qeydiyyatdan keçməklə və/və ya ondan istifadə etməklə, siz bu Şərtləri oxuduğunuzu, başa düşdüyünüzü və qəbul etdiyinizi təsdiqləyirsiniz. Əks halda, Platformadan istifadə etməməyiniz xahiş edilir.

Əlaqə: info@datarace.ai | Veb-sayt: https://datarace.ai

## 2. Əsas anlayışlar və təriflər

Bu Şərtlərdə aşağıdakı anlayışlardan istifadə olunur:

- "Yarış" - Platforma vasitəsilə təşkil edilən AI/ML müsabiqəsi;
- "Yarışın Ev Sahibi" - yarışı MSİM ilə birgə təşkil edən korporativ tərəfdaş;
- "Dataset" - yarış çərçivəsində iştirakçılara təqdim olunan məlumat toplusu;
- "Həll" və ya "Təqdimat" - iştirakçı tərəfindən yarış çərçivəsində təqdim edilən model, kod və ya proqnoz fayl(lar)ı;
- "Liderlər lövhəsi" - yarışda iştirakçıların balları əsasında sıralamasını əks etdirən reytinq cədvəli;
- "Hesab" - istifadəçinin Platformada qeydiyyatdan keçərək yaratdığı şəxsi profil;
- "Fərdi məlumatlar" - "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilmiş istifadəçi məlumatları;
- "Əqli mülkiyyət hüquqları - müəlliflik hüququnun obyekti olan əsərlərə, ifalara, fonoqramlara, audiovizual yayımçının proqramlarına, inteqral sxem topologiyalarına, məlumat toplularına, folklor nümunələrinə (ənənəvi mədəni nümunələrə), ixtiralara, faydalı modellərə, sənaye nümunələrinə, əmtəə nişanlarına, coğrafi göstəricilərə hüquqlar.

# 3. Şərtlərin tətbiq dairəsi

3.1. Bu Şərtlər Platformanın bütün istifadəçiləri - qeydiyyatdan keçmiş şəxslər üçün məcburidir.

3.2. Konkret yarışlar üçün əlavə xüsusi qaydalar müəyyən edilə bilər. Belə hallar arasında ziddiyyət yaranarsa, konkret yarış üçün yarış səhifəsində dərc edilmiş xüsusi qaydalar üstünlük təşkil edir.

3.3. MSİM bu Şərtləri istənilən vaxt birtərəfli qaydada dəyişdirmək hüququnu özündə saxlayır. Əhəmiyyətli dəyişikliklər barədə istifadəçilərə e-poçt və/və ya Platforma vasitəsilə bildirilir. Dəyişikliklər qüvvəyə mindikdən sonra Platformadan istifadəni davam etdirmək yeni şərtlərin qəbul edilməsi deməkdir.

# 4. Xidmətin təsviri

4.1. DataRace.AI istifadəçilərə aşağıdakı xidmətləri təqdim edir:

- AI/ML yarışlarında iştirak etmək imkanı;
- Yarış datasetlərinə giriş;
- Həllərin avtomatik qiymətləndirilməsi;
- Liderlər lövhələrinə baxış;
- Müzakirə forumlarında digər iştirakçılarla əlaqə;
- Yarışlarda qalib olduqda mükafatların əldə edilməsi (mükafatlı yarışlarda);
- Təhsil materiallarına və icma resurslarına giriş.

4.2. Xidmət istifadəçiyə mövcud vəziyyətdə ("olduğu kimi") təklif edilir. MSİM platformanın fəaliyyətində texniki fasilələrin və ya proqram xətalarının olmayacağına dair zəmanət vermir və bu səbəbdən yaranan müvəqqəti narahatlıqlara görə məsuliyyət daşımır.

4.3. MSİM istənilən vaxt, əvvəlcədən xəbərdarlıq etməklə və ya etmədən, Xidməti və ya onun hər hansı hissəsini dəyişdirmək, dayandırmaq və ya ləğv etmək hüququnu özündə saxlayır.

# 5. Qeydiyyat və istifadəçi hesabı

## 5.1. Qeydiyyat şərtləri

- Platformada yarışlarda iştirak etmək üçün hesab yaratmaq tələb olunur.
- Qeydiyyatdan keçmək üçün istifadəçi 18 yaşı tamam olmuş fiziki şəxs olmalıdır. 18 yaşından kiçik şəxslər yalnız valideyn və ya qanuni nümayəndəsinin yazılı razılığı və müşayiəti ilə Platformanın təhsil materiallarına çıxış əldə edə bilərlər, lakin yarışlarda iştirak edə bilməzlər.
- İştirakçılar platformada qeydiyyatdan keçərkən yalnız aktiv, özlərinə məxsus və real e-poçt (email) ünvanlarından istifadə etməlidirlər. Müvəqqəti (temp mail), saxta və ya aktiv olmayan e-poçt ünvanları ilə qeydiyyatdan keçmək qəti qadağandır. Yarış müddətində və ya yarış bitdikdən sonra (məsələn, kod yoxlanışı mərhələsində) təşkilatçılar tərəfindən göndərilən e-poçt bildirişlərinə görə bütün məsuliyyət iştirakçının üzərinə düşür. Aktiv olmayan və ya saxta e-poçt istifadəsi səbəbindən sorğunun iştirakçıya çatmaması və bu səbəbdən kod tələbi sorğusuna müəyyən edilmiş **48 saatlıq**

**müddət** ərzində cavab verilməməsi iştirakçının **avtomatik və birdəfəlik diskvalifikasiyası** ilə nəticələnəcəkdir.

- Qeydiyyat zamanı təqdim edilən bütün məlumatlar dəqiq, tam və aktual olmalıdır.
- Bir fiziki şəxs yalnız bir hesab yarada bilər. Eyni şəxs tərəfindən birdən çox hesabın yaradılması qadağandır.

### 5.2. Hesabın təhlükəsizliyi

- İstifadəçi öz giriş məlumatlarının (login, parol) məxfiliyini qorumaqda tam məsuliyyət daşıyır.
- Hesabınızdan icazəsiz istifadə və ya təhlükəsizliyin pozulması barədə şübhə yarandıqda dərhal info@datarace.ai ünvanına bildirməlisiniz.
- Hesabınız vasitəsilə həyata keçirilən bütün fəaliyyətlərə görə siz şəxsən cavabdehsiniz.

### 5.3. Hesabın dayandırılması və silinməsi

- İstifadəçi istənilən vaxt hesabını silmək hüququna malikdir. Bunun üçün info@datarace.ai ünvanına müraciət edilməlidir.
- MSİM bu Şərtləri pozan istifadəçilərin hesablarını birtərəfli qaydada dayandırmaq və ya silmək hüququnu özündə saxlayır.
- Hesabın silinməsi mükafat hüquqlarının itirilməsinə səbəb ola bilər:
  - Könüllü silinmə zamanı: Yarışın nəticələri tam yekunlaşmadan, qalibiyyət rəsmiləşdirilmədən və mükafat müqaviləsi (kontrakt) imzalanmadan öncə istifadəçi hesabını könüllü silərsə, mükafatdan imtina etmiş sayılır və mükafat hüququnu itirir. (Mükafat müqaviləsi imzalandıqdan və bank rekvizitləri təsdiq edildikdən sonra hesabın silinməsi ödənişin icrasına mane olmur).
  - Qayda pozuntusuna görə silinmə zamanı: İstifadəçi tərəfindən yarış qaydalarının və ya bu Şərtlərin pozulması (məsələn: köçürmə, fırıldaqçılıq, manipulyasiya və s.) aşkarlandığı üçün hesabı MSİM tərəfindən bloklanarsa və ya silinərsə, həmin istifadəçi qazandığı bütün mükafat hüquqlarını dərhal və şərtsiz itirir.
- İstifadəçi adları təhqiredici, ədəbsiz, ayrı-seçkilik xarakterli və ya hər hansı formada qeyri-etik ifadələr ehtiva edə bilməz. Təşkilatçılar bu tələbə uyğun gəlməyən istifadəçi adlarını xəbərdarlıq etmədən dəyişdirmək, silmək, gizlətmək və ya müvafiq hesabı yarışmadan kənarlaşdırmaq hüququnu özündə saxlayır.
- Yarışın rəsmi nəticələrinin, qaliblərin və liderlər cədvəlinin yekun dərcində iştirakçıların platformada qeydiyyatdan keçərkən təqdim etdiyi həqiqi ad və soyadlarından istifadə olunur. Mükafatlandırma və rəsmi elanlar zamanı qeydiyyat məlumatlarının iştirakçının şəxsiyyətini təsdiq edən hüquqi sənədlərlə tam üst-üstə düşməsi mütləqdir.

## 6. İstifadəçinin hüquq və vəzifələri

### 6.1. İstifadəçinin hüquqları

- Platformanın bütün açıq xidmətlərindən bərabər şərtlərlə istifadə etmək;
- Yarışlarda iştirak etmək və mükafat fondundan pay almaq hüququ qazanmaq;
- Müzakirə forumlarında öz fikirlərini bildirmək;

- Fərdi məlumatları üzərində qanunla müəyyən edilmiş hüquqlardan istifadə etmək (baxış, düzəliş, silinmə və s.);
- Texniki dəstək almaq.

### 6.2. İstifadəçinin vəzifələri

- Bu Şərtlərə və Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə əməl etmək;
- Platformadan yalnız qanuni olaraq qadağan olmayan məqsədlər üçün istifadə etmək;
- Digər istifadəçilərə hörmətlə yanaşmaq, qarşıdurma, təhqir, ayrı-seçkilik və ya nifrətə təhrik edən məzmun yaymamaq;
- Yarış qaydalarına və təqdimat təlimatlarına ciddi əməl etmək;
- Hesab məlumatlarının dəqiqliyini təmin etmək.

### 6.3. Qadağan olunmuş hərəkətlər

İstifadəçilərə aşağıdakılar qadağandır:

- Platformanın və ya onun komponentlərinin haker hücumu, scraping, reverse engineering, avtomatlaşdırılmış botlar vasitəsilə icazəsiz istifadəsi;
- Birdən çox hesabın yaradılması və ya başqasının adı altında qeydiyyatdan keçmək;
- Yarış nəticələrinin saxtalaşdırılmasına yönəlmiş istənilən fəaliyyət (hesab paylaşımı, kənar köməkdən istifadə);
- Datasetlərin icazəsiz yayılması, satılması və ya üçüncü tərəflərə ötürülməsi;
- Zərərli proqram təminatının (virus, troyan, ransomware və s.) Platformaya yüklənməsi; • Spam, kommersiya reklamı, fişinq və ya başqa formada digər istifadəçilərin maraqlarına zərər vuran fəaliyyət;
- Müəlliflik hüququ ilə qorunan materialların icazəsiz istifadəsi və yayılması; • Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olan istənilən digər fəaliyyət.

## 7. Əqli mülkiyyət hüquqları

### 7.1. MSİM-in əqli mülkiyyət hüquqları

- Platformanın bütün məzmunu - proqram kodu, dizayn, loqo, ticarət nişanları, mətnlər, qrafika, videolar və digər materiallar - MSİM-ə məxsusdur.
- MSİM-in Platforma üzrə istənilən əqli mülkiyyət hüququ “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”, “Patent haqqında”, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında”, “Məlumat toplularının hüquqi qorunması haqqında” Azərbaycan Respublikasının qanunları, digər normativ hüquqi aktlar və Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə qorunur.
- MSİM-in yazılı icazəsi olmadan Platforma məzmununun surətinin çıxarılması, dəyişdirilməsi, yayılması, ictimaiyyətə təqdim edilməsi və ya kommersiya məqsədilə istifadəsi qadağandır.

### 7.2. İstifadəçinin yaratdığı məzmun

- İstifadəçi Platformada paylaşdığı məzmunun (forum yazıları, şərhlər və s.) müəlliflik hüquqlarını saxlayır.

- Lakin istifadəçi həmin məzmunun Platformada nümayiş etdirilməsi, surətinin çıxarılması və yayılması üçün MSİM-ə qeyri-eksklüziv, ümumdünya, müddətsiz lisenziya verir.
- İstifadəçi paylaşdığı məzmunun üçüncü tərəflərin hüquqlarını pozmadığına və qanunvericiliyə uyğun olduğuna zəmanət verir.

### 7.3. Yarış həllərinə dair hüquqlar

- Adi (mükafatsız) yarışlarda iştirakçı öz həllinin müəlliflik hüquqlarını saxlayır.
- Mükafatlı yarışda qalib gələn iştirakçı, mükafatı qəbul etməklə, qalib həllinin (kod, model, tədqiqat sənədinin və s.) müstəsna istifadə hüququnu MSİM-ə və Yarışın Ev Sahibinə qeyri-müəyyən müddətə (lakin müəlliflik hüququnun qüvvədə olduğu müddətdən çox olmamaqla), royaltisiz əsasla ötürür.
- İştirakçı bu hüquqların ötürülməsini müəllif müqaviləsinə dair müddəaları əsasında həyata keçirir.
- İştirakçı təqdim etdiyi həllin onun şəxsən hazırladığı orijinal əsər olduğuna və üçüncü tərəflərin əqli mülkiyyət hüquqlarını pozmadığına zəmanət verir.

## 8. Yarış qaydaları

### 8.1. İştirak şərtləri

- Yarış mükafatları yalnız Azərbaycan Respublikasının vətəndaşlarına təqdim olunur.
- İştirakçının yaşı 18-dən az olmamalıdır.
- Aşağıdakı şəxslərin yarışlarda iştirakı qadağandır:
    - MSİM-in tam ştat, qismən ştat və ya müqavilə əsasında işləyən əməkdaşları;
    - Yarışın Ev Sahibinin konkret yarışı təşkil edən əməkdaşları;
    - Yarışın hazırlanmasında, datasetlərin toplanmasında və ya hazırlanmasında iştirak etmiş şəxslər;
    - Kod baxışı (review) prosesində iştirak edən və ya edəcək şəxslər.
- İştirak fərdi qaydada həyata keçirilir (yarış səhifəsində komanda iştirakı icazəli kimi göstərilməyibsə).

### 8.2. Həll təlimatları

- Təqdim edilən proqnoz faylları mənbə kodunu təqdim edəcəyiniz şəxsi modelinizin nəticəsi olmalıdır.
- Yalnız açıq mənbəli, hər kəsə əlçatan paket və kitabxanalardan istifadə edilə bilər.
- Standart kitabxanalar vasitəsilə açıq əlçatan olan əvvəlcədən öyrədilmiş modellərdən (pretrained models) istifadə icazəlidir.
- Yarış səhifəsində xüsusi icazə verilmədikcə, xarici datasetlərdən istifadə qadağandır.
- Kredit kartı tələb edən ödənişli xidmətlərdən və ya pulsuz sınaq versiyalarından (free trial) istifadə qadağandır (müsabiqə qaydalarında xüsusi olaraq istifadəyə icazə verilmədiyi müddətcə).

### 8.3. Təqdimatlar

- Hər yarış üçün gündəlik maksimum təqdimat sayı və yarış boyu ümumi maksimum təqdimat sayı yarış səhifəsində göstərilir.

- Qəbul olunan format: CSV faylı (qiymətləndirmə üçün).
- Yalnız qiymətləndirmə mərhələsindən uğurla keçən təqdimatlar sayılır və qiymətləndirilir.
- İstifadəçi gizli liderlər lövhəsi üçün təqdimatlar siyahısından iki həll seçə bilər. Seçim edilmədikdə, açıq liderlər lövhəsində ən yüksək balı toplamış iki həll avtomatik olaraq seçilir və gizli xal hesablanıb müqayisə olunur və ən yüksək nəticə toplayan həll gizli liderlər lövhəsi üçün seçilir.

## 8.4. Liderlər lövhələri

- İctimai liderlər lövhəsi - test datasetinin 20–60%-ni əhatə edir (dəqiq nisbət yarış səhifəsində göstərilir).
- Gizli liderlər lövhəsi - test datasetinin qalan hissəsi əsasında hesablanır və yarış bitdikdən sonra açıqlanır.
- Yekun sıralama gizli liderlər lövhəsi əsasında müəyyən edilir.

## 8.5. Modelin təkrar istifadə olunması

- Təqdim edilmiş həll təkrar icra edildikdə Platformadakı ilə eyni nəticəni göstərməlidir.
- İştirakçı seed (təsadüfilik toxumu) təyin etməlidir.
- Kod tam sənədləşdirilməli, requirements.txt faylı ilə birlikdə təqdim edilməlidir.
- Kod tam sənədləşdirilməli, asılılıqlar faylı (və ya paket manifesti), istifadə edilmiş əlavə verilənlər dəstləri və əvvəlcədən öyrədilmiş modellər ilə birlikdə yazılı şəkildə təqdim edilməlidir.
- İstifadə olunan mühit (Google Colab, lokal və s.) və hər notebook üçün təxmini icra müddəti qeyd edilməlidir.

## 8.6. Monitorinq və yoxlama

- DataRace komandası yarış bitdikdən sonra sizinlə e-poçt üzərindən əlaqə saxlayaraq həllinizi yaradan kodu/modeli göndərməyinizi istəyəcək, bu e-poçta 48 saatdan gec olmayaraq cavab verməyiniz mütləqdir, əks halda yarışdan kənarlaşdırılacaqsınız.
- Yarış bitdikdən sonra yuxarı sıralarda(əsasən TOP10, lakin spesifik yarışa görə dəyişə bilər, bu zaman yarışın qaydaları daxilində qeyd olunacaq) yerləşən bütün həllər mexaniki baxışdan keçirilir. Mexaniki baxış mərhələsində iştirakçılardan təqdim etdikləri həllərlə bağlı daha ətraflı məlumatlar almaq üçün onlayn/əyani görüşlər tələb oluna bilər, iştirakçı belə tələbə 48 saatdan gec olmayaraq cavab verməlidir.
- MSİM yarış müddətində istənilən vaxt istənilən iştirakçıdan kodunu və/və ya modelini tələb etmək hüququna malikdir. İştirakçı belə tələbə 48 saat ərzində cavab verməlidir.

## 8.7. Qaydaların pozulmasının nəticələri

- Birinci pozuntu: Cari yarışdan diskvalifikasiya və növbəti 6 ay ərzində MSİM tərəfindən təşkil edilən istənilən yarışda qalib olmaq hüququnun itirilməsi.
- İkinci pozuntu: Platformadan daimi qovulma və başqa hesab altında iştirak etmək hüququnun itirilməsi.
- Hiyləgərli və ya datasetin icazəsiz yayılması hallarında MSİM Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hüquqi tədbirlər görmək hüququnu özündə saxlayır.

# 9. Dataset istifadə qaydaları

## 9.1. Datasetlərin mülkiyyəti

- Bütün yarış datasetləri MSİM-in və Yarışın Ev Sahibinin müstəsna mülkiyyətidir.
- Datasetlər "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanunu, "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanunu və müvafiq normativ aktlar və beynəlxalq müqavilələrlə qorunur.

## 9.2. İcazə verilən istifadə

- Dataset yalnız təqdim edildiyi konkret yarışda iştirak məqsədilə istifadə edilə bilər.
- Dataset Google Colab, AWS və ya digər bulud platformalarında saxlanıla və emal edilə bilər, bu şərtlə ki: (a) məxfilik qorunsun, (b) bu Şərtlər pozulmasın.

## 9.3. Qadağan olunmuş istifadə

- Datasetin yarış xaricindəki istənilən şəxsə ötürülməsi, kopyalanması, dərc edilməsi və ya yayılması;
- Datasetin Kaggle, GitHub, HuggingFace və ya digər ictimai platformalara yüklənməsi;
- Datasetin satılması, lisenziyalaşdırılması və ya hər hansı formada monetizasiya edilməsi;
- Datasetdən törəmə hissələr yaradılması və ya statistik məlumatların icazəsiz dərc edilməsi;
- Datasetin yarışla əlaqəsi olmayan tədqiqat və ya kommersiya məqsədilə istifadəsi.

## 9.4. Yarışdan sonrakı öhdəliklər

- Yarış bitdikdən sonra və ya MSİM-in tələbi əsasında istənilən vaxt, iştirakçı datasetin bütün surətlərini (lokal kompüterdən, bulud saxlama yerlərindən, ehtiyat nüsxələrdən və s.) silməyə razılaşacağını və qeyd olunan fəaliyyəti icra edəcəyini qəbul edir.

## 9.5. İcazəsiz girişin bildirilməsi

- İştirakçı datasetə icazəsiz giriş və ya yayılma faktı barədə dərhal MSİM-ə bildirməyə və araşdırma prosesində əməkdaşlıq etməyə razılıq verir.

## 9.6. Pozuntuların hüquqi nəticələri

Dataset üzrə qaydalarının pozulması bu Şərtlərin ciddi pozuntusu sayılır və aşağıdakı nəticələrə səbəb ola bilər:

- Verilmiş və ya veriləcək mükafatın itirilməsi;
- Platformadan daimi qadağa;
- Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən mülki məsuliyyət və ziyanın əvəzinin ödənilməsi tələbi;
- "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanunu çərçivəsində məsuliyyət;

- "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanunun pozulması halında müvafiq sanksiyalar;
- Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən məsuliyyət;
- Cinayət əlamətləri olduqda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun məsuliyyət.

# 10. Mükafat siyasəti

## 10.1. Mükafatların təyini

- Hər mükafatlı yarış üçün mükafat fondunun məbləği, paylanma strukturu və qaliblərin sayı yarış səhifəsində göstərilir.
- Mükafatlar yalnız gizli liderlər lövhəsinin və mexaniki yoxlanış mərhələsinin yekun nəticəsi əsasında verilir.
- İki həll eyni nəticəni topladıqda, daha erkən təqdim olunmuş həll üstünlük təşkil edir.

## 10.2. Qaliblərin yoxlanılması (KYC)

- Mükafat verilməzdən əvvəl MSİM qalibdən aşağıdakıları tələb edir:
    - Şəxsiyyəti təsdiq edən sənəd (şəxsiyyət vəsiqəsi və ya pasport);
    - Bank hesabı rekvizitləri (qalibin öz adına);
    - Yaşayış ünvanını təsdiqləyən sənəd;
    - Mükafatın alınmasını təsdiq edən sənədin (təhvil-təslim aktı) imzalanması.
- KYC prosedurları "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun aparılır.
- Qalib bildiriş e-poçtu aldıqdan sonra 14 (on dörd) təqvim günü ərzində tələb olunan sənədləri təqdim etməlidir. Bu müddət ərzində sənədlər təqdim edilməzsə, mükafat növbəti uyğun iştirakçıya verilə bilər.

## 10.3. Mükafatın ödənilməsi

- Mükafatlar yalnız qalibin öz adına olan Azərbaycan banklarındakı bank hesabına köçürmə yolu ilə ödənilir.
- Üçüncü tərəf hesablarına ödəniş edilmir.
- Standart ödəniş müddəti: KYC prosedurları tamamlandıqdan və mükafat müqaviləsi imzalandıqdan sonra 30 (otuz) iş günü ərzində.
- Ödəniş zamanı banka tutulan komissiyalar qalibin hesabına aiddir.

## 10.4. Vergilər

- Mükafat Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən vergiyə cəlb olunur.
- MSİM Vergi Məcəlləsinin müvafiq müddəalarına uyğun olaraq mükafatdan tələb olunan vergini ödəniş mənbəyində tutmaq hüququna malikdir.
- Qalib mükafat gəlirini şəxsən vergi orqanlarına bəyan etməkdə məsuliyyət daşıyır (Vergi Məcəlləsinin müvafiq tələbləri çərçivəsində).

- Qaliblərə təqdim ediləcək mükafatlar bütün vergilər və digər məcburi ödənişlər edildikdən sonra xalis formada təqdim edilir.

### 10.5. Mükafatdan imtina

- Qalib mükafatdan yazılı şəkildə imtina edə bilər.
- İmtina halında mükafat MSİM-in mülahizəsinə əsasən növbəti uyğun iştirakçıya verilir və ya yarış mükafat fonduna qaytarılır.

### 10.6. Mükafatın geri alınması

- Mükafat verildikdən sonra qalibin Şərtləri pozduğu aşkar edildikdə (məs., hiyləgərlik, dataset üzrə qaydalarının pozulması, saxta sənəd təqdim etmə və s.), MSİM mükafatı təqdim etməmək, artıq təqdim edilmiş mükafata münasibətdə isə onu geri tələb etmək və Mülki Məcəllənin müvafiq müddəalarına əsasən hüquqi tədbirlər görmək hüququna malikdir.

## 11. Fərdi məlumatların qorunması

### 11.1. Tətbiq olunan qanunvericilik

- Fərdi məlumatların işlənilməsi (emalı) "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa və müvafiq normativ hüquqi aktlara uyğun aparılır.

### 11.2. Toplanan məlumatlar

Platforma aşağıdakı kateqoriyalardan Fərdi məlumatları emal edir:

- İdentifikasiya məlumatları: ad, soyad, doğum tarixi, şəxsiyyət vəsiqəsi məlumatları (yalnız KYC mərhələsində);
- Əlaqə məlumatları: e-poçt ünvanı, telefon nömrəsi, yaşayış ünvanı;
  Maliyyə məlumatları: bank rekvizitləri (yalnız mükafat alan qaliblər üçün);
- Texniki məlumatlar: IP ünvan, brauzer növü, cihaz məlumatları, log faylları;
- Davranış məlumatları: təqdimat tarixçəsi, yarış nəticələri, Platformadakı fəaliyyət.

### 11.3. Məlumatların emalının məqsədləri

- İstifadəçi hesabının yaradılması və idarə edilməsi;
- Yarışların təşkili və qiymətləndirilməsi;
- Mükafatların ödənilməsi və müvafiq sənədləşmə;
- Vergi öhdəliklərinin yerinə yetirilməsi;
- Texniki dəstək göstərilməsi;
- Təhlükəsizliyin və saxtakarlığın qarşısının alınması;
- Statistik təhlil və Platformanın inkişafı;
- Qanunvericiliklə nəzərdə tutulmuş hallarda dövlət orqanlarına məlumatın təqdim edilməsi.

## 11.4. Saxlanma müddəti

- Hesab məlumatları - hesab fəal olduğu müddətdə və Qanunvericiliyə uyğun müddət ərzində;
- Maliyyə və vergi sənədləri - Vergi Məcəlləsinə uyğun olaraq 5 il;
- Log faylları - 1 il.

## 11.5. İstifadəçinin hüquqları

İstifadəçi (fərdi məlumat subyekti) öz fərdi məlumatları ilə bağlı Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq aşağıdakı hüquqlara malikdir:

**11.5.1. Məlumatlandırılma hüququ**
İstifadəçi informasiya sistemində özü barəsində fərdi məlumatların mövcudluğu, həmin məlumatların mülkiyyətçisi və ya operatoru, eləcə də məlumatların işlənilməsi məqsədi, hüquqi əsasları və hüquqi nəticələri barədə məlumat almaq hüququna malikdir.

**11.5.2. Məlumatlara çıxış hüququ**
İstifadəçi özü barəsində toplanılmış və işlənilən fərdi məlumatların məzmunu ilə tanış olmaq, onların surətini əldə etmək və həmin məlumatların hansı mənbələrdən əldə edildiyini öyrənmək hüququna malikdir.

**11.5.3. Emal məqsədi və üsulları barədə məlumat almaq hüququ**
İstifadəçi fərdi məlumatlarının toplanılması və işlənilməsi məqsədləri, müddəti, texniki və hüquqi üsulları, eləcə də həmin məlumatlara çıxış imkanı olan şəxslər və ya üçüncü tərəflər barədə məlumat tələb edə bilər.

**11.5.4. Düzəliş və dəqiqləşdirmə hüququ**
İstifadəçi natamam, köhnəlmiş, yanlış və ya qeyri-dəqiq fərdi məlumatların düzəldilməsini və ya yenilənməsini tələb etmək hüququna malikdir.

**11.5.5. Silinmə (məhv edilmə) hüququ**
Qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla, istifadəçi öz fərdi məlumatlarının silinməsini, məhv edilməsini və ya müəyyən olunmuş qaydada arxivə verilməsini tələb edə bilər.

**11.5.6. Emalın məhdudlaşdırılması hüququ**
İstifadəçi müəyyən hallarda fərdi məlumatlarının işlənilməsinin müvəqqəti və ya daimi məhdudlaşdırılmasını tələb etmək hüququna malikdir.

**11.5.7. Emala etiraz etmək hüququ**
Fərdi məlumatların toplanılması və işlənilməsi qanunvericiliklə məcburi nəzərdə tutulmadıqda, istifadəçi həmin emala yazılı şəkildə etiraz edə bilər. Belə etiraz daxil olduqda, məlumatların işlənilməsi dərhal dayandırılır.

**11.5.8. Avtomatlaşdırılmış qərarlara etiraz hüququ**
İstifadəçi informasiya texnologiyaları vasitəsilə avtomatlaşdırılmış qaydada qəbul edilmiş və onun hüquq və mənafelərinə təsir edən qərarlara etiraz etmək hüququna malikdir. Bu halda məlumatların alternativ üsulla işlənilməsi və ya emalın dayandırılması tələb oluna bilər.

**11.5.9. Məlumat daşınması hüququ**
İstifadəçi öz fərdi məlumatlarını strukturlaşdırılmış, geniş istifadə olunan və maşın tərəfindən oxuna bilən formatda əldə etmək və ya texniki cəhətdən mümkün olduqda başqa operatora ötürülməsini tələb etmək hüququna malikdir.

**11.5.10. Məlumatların mühafizəsini tələb etmək hüququ**
İstifadəçi fərdi məlumatlarının təhlükəsizliyinin və məxfiliyinin təmin olunmasını, onların icazəsiz girişdən, dəyişdirilmədən, yayılmadan və digər qanunsuz hərəkətlərdən qorunmasını tələb edə bilər.

**11.5.11. Uyğunluq və təhlükəsizlik barədə məlumat almaq hüququ**
İstifadəçi fərdi məlumatlarının saxlanıldığı informasiya sistemlərinin qanunvericiliyə uyğunluğu, təhlükəsizlik tədbirləri və zəruri sertifikatların mövcudluğu barədə məlumat tələb edə bilər.

**11.5.12. Razılığı geri çəkmək hüququ**
Fərdi məlumatların emalı istifadəçinin razılığı əsasında həyata keçirilirsə, istifadəçi istənilən vaxt həmin razılığı geri götürmək hüququna malikdir. Razılığın geri götürülməsi, geri götürülmədən əvvəl həyata keçirilmiş emalın qanuniliyinə təsir göstərmir.

**11.5.13. Şikayət və məhkəməyə müraciət hüququ**
İstifadəçi fərdi məlumatlarının qanunsuz toplanılması, işlənilməsi və ya mühafizəsinin təmin edilməməsi nəticəsində hüquqlarının pozulduğunu hesab etdikdə, müvafiq icra hakimiyyəti orqanlarına və ya məhkəməyə müraciət etmək, habelə vurulmuş maddi və mənəvi ziyanın ödənilməsini tələb etmək hüququna malikdir.

Bu hüquqların həyata keçirilməsi üçün istifadəçi yazılı ərizə, şəxsiyyətini təsdiq edən sənəd və ya elektron imza ilə təsdiqlənmiş elektron sorğu vasitəsilə **info@datarace.ai** ünvanına müraciət edə bilər. MSİM daxil olmuş sorğuları qanunvericiliyə uyğun olaraq ən geci **15 (on beş) iş günü** ərzində cavablandırır.

## 11.6. Üçüncü tərəflərə məlumatın ötürülməsi

MSİM istifadəçinin Fərdi məlumatlarını yalnız aşağıdakı hallarda üçüncü tərəflərə ötürür:

- İstifadəçinin razılığı ilə;
- Mükafat ödənişlərində bank və ödəniş sistemləri ilə;
- Yarışın Ev Sahibi ilə (qalib məlumatları yalnız mükafat verilməsi məqsədilə);
- Qanuni tələblərə əsasən dövlət orqanlarına;
- Texniki infrastruktur təminatçıları ilə.

## 11.7. Təhlükəsizlik tədbirləri

- Şifrələmə (HTTPS, məlumat bazasının şifrələnməsi);
- Çoxfaktorlu autentifikasiya;
- Müntəzəm təhlükəsizlik auditi;
- Giriş hüquqlarının məhdudlaşdırılması;

# 12. Məsuliyyətin məhdudlaşdırılması

## 12.1. Ümumi məhdudiyyətlər

- Xidmət istifadəçiyə mövcud vəziyyətdə ("olduğu kimi") təklif edilir. MSİM platformanın fəaliyyətində texniki fasilələrin və ya proqram xətalarının olmayacağına dair zəmanət vermir və bu səbəbdən yaranan müvəqqəti narahatlıqlara görə məsuliyyət daşımır
- MSİM Platformanın fasiləsiz, səhvsiz və ya hər hansı texniki problemsiz işləməsinə zəmanət vermir.
- MSİM istifadəçinin Platformadan istifadə nəticəsində dəymiş dolayı, təsadüfi və ya nəticəvi ziyanlara (məs., əldən çıxmış fayda, məlumat itkisi və s.) görə məsuliyyət daşımır.

## 12.2. Məsuliyyət istisnaları

- Fors-major halları (təbii fəlakətlər, hərbi əməliyyatlar, kütləvi xəstəliklər, dövlət qərarları və s.);
- Üçüncü tərəflərin hərəkətləri (haker hücumları, internet provayderlərinin problemləri və s.); • İstifadəçinin öz hərəkətləri və ya laqeydliyi;
- Texniki yeniləmələr və profilaktik işlər.

Bu Şərtlərdəki heç bir müddəa istifadəçinin imperativ qanun normalarından irəli gələn hüquqlarını məhdudlaşdıra bilməz.

# 13. Tətbiq olunan qanunvericilik və mübahisələrin həlli

- Bu Şərtlər və onlardan irəli gələn bütün münasibətlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.
- Mübahisə yarandıqda tərəflər ilk növbədə danışıqlar yolu ilə həll etməyə cəhd göstərirlər.
- Şikayət yazılı şəkildə info@datarace.ai ünvanına göndərilməlidir.
- MSİM şikayətə 15 iş günü ərzində cavab verir.
- Danışıqlar yolu ilə həll edilməyən mübahisələr Azərbaycan Respublikasının müvafiq məhkəmələrində həll edilir.
- Bu Şərtlərdən irəli gələn iddialar üzrə iddia müddəti, qanunla başqa müddət nəzərdə tutulmuş hallar istisna olmaqla, Mülki Məcəlləyə əsasən 3 (üç) ildir.

# 14. Son müddəalar

## 14.1. Tam müqavilə

Bu Şərtlər MSİM ilə istifadəçi arasında Platforma ilə bağlı tam razılığı təşkil edir və əvvəlki bütün şifahi və ya yazılı razılaşmaları əvəz edir.

### 14.2. Müddəaların ayrılığı (Severability)

Əgər bu Şərtlərin hər hansı bir müddəası məhkəmə tərəfindən etibarsız hesab edilərsə, qalan müddəalar tam qüvvədə qalır.

### 14.3. Hüquqlardan imtina (Waiver)

MSİM-in bu Şərtlərdən irəli gələn hər hansı hüququndan istifadə etməməsi həmin hüquqdan imtina kimi qiymətləndirilə bilməz.

### 14.4. Hüquqların ötürülməsi

İstifadəçi bu Şərtlərdən irəli gələn hüquq və öhdəliklərini MSİM-in yazılı razılığı olmadan üçüncü tərəfə ötürə bilməz. MSİM öz hüquq və öhdəliklərini istənilən vaxt hüquqi varislərinə ötürə bilər.

### 14.5. Bildirişlər

- İstifadəçiyə bildirişlər qeydiyyat zamanı təqdim edilmiş e-poçt ünvanına göndərilir.
- MSİM-ə müraciətlər info@datarace.ai ünvanına göndərilməlidir.
- Bildiriş göndərildiyi gündən sonrakı gündə alınmış hesab olunur.

### 14.6. Dilin üstünlüyü

Bu Şərtlər Azərbaycan dilində tərtib edilmişdir. Digər dillərdəki tərcümələr, əsasən, məlumat xarakteri daşıyır. Tərcümələr arasında ziddiyyət yaranarsa, Azərbaycan dilindəki mətn üstünlük təşkil edir.

## 15. Əlaqə məlumatları

Bu Şərtlərlə bağlı suallarınız üçün:

**DataRace.AI | Milli Süni İntellekt Mərkəzi**
E-poçt: info@datarace.ai
Veb-sayt: https://datarace.ai

Ünvan: **Bakı 1010, Nizami küçəsi 90 A**

***DataRace.AI platformasında qeydiyyatdan keçməklə və/və ya ondan istifadə etməklə, siz bu İstifadəçi Şərtlərinin bütün müddəalarını oxuduğunuzu, başa düşdüyünüzü və qeydşərtsiz qəbul etdiyinizi təsdiqləyirsiniz.***